# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN BMT ÇƏRÇIVƏSİNDƏ HƏLLİ YOLLARI

**R.B.DADAŞOVA**
*AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstiututu*

Ermənistanın Azərbaycana təcavüzünün qarşısını almaq üçün Azərbaycan və Türkiyə hökumətlərinin müraciətlərindən sonra BMT TŞ Dağlıq Qarabağ münaqişəsi barədə 4 qətnamə qəbul etdi. Qətnamələr müharibənin gərginləşdiyi dövrdə qəbul edildiyi üçün əsas və ilkin tələb təcili atəşkəs etmək idi.

1994-cü il mayın 12-də MDB dövlət başçıları Şurasının 1994-cü il 15 aprel tarixli bəyannaməsinə əsasən Atəşkəs barədə saziş bağlansa da, Ermənistan mütəmadi olaraq atəşkəsi pozur. Lakin Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya məsuliyyəti Azərbaycanın üzərinə qoyur. Bu barədə Rusiya Federasiyası prezidentinin Dağlıq Qarabağ üzrə xüsusi səfiri Vladimir Kazimirov deyir: «…Qətnamələrin əsas tələblərini hansı tərəfin pozduğunu dəqiqləşdirmək vaxtı çatmışdır... Əlbəttə, bu, mübahisəsiz Azərbaycan tərəfdir… Bakı 3 dəfə hərbi əməliyyatların sona çatmasına imkan vermədi». Münaqişə tərəflərinin hər birinin qətnaməyə kompleks deyil, öz maraqları çərçivəsində yanaşmasını qeyd edən V.Kazimirov belə vurğulayır: «…Azərbaycan qətnaməyə müvafiq olaraq, işğal edilmiş ərazilərin boşaldılması üzərində təkid edir. Ona silahlı münaqişənin ağır nəticələrinə, məcburi köçkünlərin əzab-əziyyətlərinə diqqəti cəlb etmək lazımdır. Lakin əsas mübahisəli problem, münaqişənin səbəbi – Dağlıq Qarabağa status verilməsi arxa plana sıxışdırılır (10). Beləliklə, Rusiya siyasətçisi Azərbaycanın ədalətli mübarizəsinə göz yumur, Ermənistana haqq qazandırır və onu iddialara sövq etdirir.

Bütün qətnamələrdə hərbi əməliyyatların eskalasiyası – yeni şəhər və rayonların işğal edilməsi, atəşkəsin dəfələrlə pozulması, şəhər və rayonların bombalanması, artilleriya atəşinə tutulması göstərilmiş, beynəlxalq hüquq normalarına əməl etməyə çağırışlar var. TŞ-nın 822, 874, 884 saylı qətnamələrində (853 saylı qətnamədə bu qeyd edilməmişdir) dövlətlərin suverenliyi, ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilər əldə etmək üçün güc tətbiq etməyin yolverilməzliyi təsdiq edilir. Qətnamələrdə belə qeydin olması hər şeydən əvvəl hər hansı bir dövlətin ərazisini artırmaq cəhdlərini rədd edir. Suverenliyi tanıma və hörmət etmə müasir beynəlxalq hüququn sarsılmaz prinsiplərindən biridir. Bu prinsipi hər bir dövlət şərtsiz qəbul etməlidir və bu prinsiplərin qəbul edilməsi bütün iddiaların, müharibələrin qarşısını almağa xidmət edir. Qətnamələrdə işğal edilmiş ərazilərdən bütün işğalçı qüvvələrin təcili çıxarılması göstərilmişdir. Lakin, işğalçının Ermənistan olduğu qeyd olunmamışdır. Bundan başqa, yalnız 853 saylı qətnamədə işğalçı qoşunların şərtsiz çıxarılması tələb olunur. 884 saylı qətnamədə isə buna oxşar olaraq, işğalçıların birtərəfli qaydada çıxarılması tələb olunur.

Hazırda hərbi əməliyyatlar dayandırılsa da, hələ də işğalçı qüvvələr Azərbaycan ərazisindən çıxarılmamışdır, bu da regionda sülh danışıqlarının aparılmasına əsas maneə yaradır. Çünki Azərbaycan ərazisində işğalçı qüvvələrin olması bir tərəfdən Ermənistanın birtərəfli qaydada qalib olmasını şərtləndirir və o, Azərbaycana öz şərtlərini qəbul etdirməyə cəhd edirsə, digər tərəfdən qaçqın və məcburi köçkün probleminin ədalətli həll edilməsinə imkan vermir.

853, 874, 884 saylı qətnamələrdə Ermənistan və Azərbaycan arasında gərginlikdən narahatlıq qeyd edilsə də, Azərbaycan və Dağlıq Qarabağ münaqişə tərəfləri adlanır. Qətnamələr dolayısı ilə Ermənistanı münaqişənin üçüncü tərəfi olduğunu ifadə edir.

Qətnamələrdə qaçqın və məcburi köçkünlər kütləsinin yaranmasından narahatlıq bildirilsə də yalnız 874 saylı qətnamədə qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz yurdlarına qayıtması qeyd olunur. Bütün qətnamələrdə münaqişə regionuna maneəsiz humanitar yardım göndərilməsi çağırışları var.

BMT TŞ-nın qəbul etdiyi bu qətnamələr yerinə yetirilməsə də, dövrümüzün reallıqlarına uyğun olaraq yeni qətnamələr qəbul edilməli, Ermənistan təcavüzkar dövlət kimi göstərilməli, Nizamnaməyə müvafiq olaraq ona qarşı sanksiyalar tətbiq edilməlidir. Nə qədər ki, Ermənistan münaqişə tərəfi kimi tanınmayıb, bu münaqişənin BMT çərçivəsində həll edilməsi mümkün deyil. BMT-nin Təhlükəsizlik Şurasının qərarları sülhü dəstəkləmək üçün mütləqdir. Bu barədə Nizamnamənin 24-cü maddəsinin 1-ci bəndində deyilir: «Birləşmiş Millətlər Təşkilatının cəld və səmərəli hərəkətlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyurlar və razılaşırlar ki, bu məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurası onların adından çıxış etsin». 25-ci maddəyə görə «Birləşmiş Millətlər Təşkilatının üzvləri razılaşırlar ki, bu Nizamnaməyə uyğun olaraq Təhlükəsizlik Şurasının qərarlarına tabe olsunlar və onları yerinə yetirsinlər». 39-cu maddədə isə qeyd edilir: «Təhlükəsizlik Şurası hər bir halda sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasını müəyyən edir və tövsiyələr verir və yaxud beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün 41-ci və 42-ci maddələrə uyğun olaraq hansı tədbirlərin görülməsi haqqında qərar qəbul edir.»

BMT Nizamnaməyə müvafiq olaraq Atəşkəs haqqında sazişin bağlanması və təcavüzün nəticələrinin aradan qaldırılması üçün effektiv tədbirlər görməli, Ermənistanın Azərbaycana hücumunu beynəlxalq sülh və təhlükəsizliyi hədələyən vəziyyət kimi müəyyən etməlidir. 40-cı maddədə nəzərdə tutulduğu kimi, situasiyanın pisləşməsinin qarşısını almaq üçün Təhlükəsizlik Şurası maraqlı tərəflərdən zəruri, arzu edilən müvəqqəti tədbirlər görməyi tələb edə bilər və belə müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, iddialarına, yaxud mövqelərinə zərər vurmamalıdır. TŞ bu müvəqqəti tədbirlərin yerinə yetirilməməsini lazımi qaydada nəzərə alır.

41-ci maddəyə müvafiq olaraq TŞ öz qərarlarının həyata keçirilməsi məqsədilə silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan tədbirlərin tətbiq olunması barədə qərar qəbul edə bilər və BMT-nin üzvlərindən bu tədbirlərin tətbiq olunmasını tələb edə bilər. Həmin tədbirlər iqtisadi münasibətlərin, dəmiryolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini özündə əhatə edə bilər. Əgər 41-ci maddədə nəzərdə tutulan tədbirlər nəticə vermirsə, TŞ hava, dəniz və ya quru qüvvələrinin

vasitəsilə beynəlxalq təhlükəsizliyin qorunub saxlanılması tədbirlərini həyata keçirə bilər.

Bundan başqa, TŞ qəbul etdiyi qətnamələrdə muzdluluğu pisləməli, beynəlxalq sülh və təhlükəsizliyi pozan belə dövlətlərə qarşı da sanksiyalar tətbiq etməlidir, münaqişə tərəfləri rəhbərlərindən, yəni Ermənistan və Azərbaycan rəhbərlərindən möhkəm siyasi nizama salmanı tələb etməlidir. Belə ki, Azərbaycan tərəf siyasi nizamasalmaya ciddi cəhd etsə də, Ermənistan belə danışıqlardan məharətlə yayınır, yaxud da qəbul edilməz şərtlər irəli sürür.

BMT TŞ Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasını ATƏT-in Minsk qrupuna həvalə etdikdən sonra Nizamnamənin 11-ci maddəsinin 2-ci bəndinə əsaslanaraq Ermənistanın təcavüzünün nəticələrinin ləğv edilməsi ilə bağlı BMT sülhməramlı qüvvələrini səfərbər etməli, Baş katib münaqişənin nizama salınmasını təhqiq etməli, bu barədə Təhlükəsizlik Şurasının nəzərinə çatdırmalıdır. Azərbaycan Respublikası Prezidenti H.Əliyevin (1993-2003-cü illər), hazırda isə İ.Əliyevin hakimiyyətinin ilk günlərində BMT TŞ-nın daimi üzvləri olan dövlətlərdə ardıcıl olaraq rəsmi səfərdə olması, Azərbaycanın ədalətli mübarizəsi barədə məlumat verməsi, Ermənistanın iddialarının heç bir hüquqi, siyasi, tarixi əsası olmadığını faktlarla sübut etməsi bu dövlətlərin rəsmi dairələrinin mövqeyini dəyişmişdir. Bu da TŞ-da yeni qətnamələrin qəbul edilməsi vaxtının çatdığını göstərir.

Baş Məclisdə 2008-ci il 14 mart tarixli «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə» adlı qətnamənin qəbul edilməsi dövlətimizin haqq mübarizəsinin dünya birliyi tərəfindən dəstəkləndiyini bir daha sübut etdi. Qətnamədə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətraf rayonlarında silahlı münaqişənin beynəlxlaq sülh və təhlükəsizliyi hədələdiyi, Cənubi Qafqaz ölkələrində humanitar vəziyyətə mənfi təsir etdiyi göstərilmişdir. Baş Məclis bildirdi ki, hər bir dövlət Azərbaycanın ərazisinin işğal edilməsi nəticəsində vəziyyətin mürəkkəbləşdiyini etiraf etməli, belə vəziyyətin saxlanılmasına kömək etməməli, şərait yaratmamalıdır. Baş Məclis üzv dövlətləri Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq tanınmış sərhədlərinə hörmət etməyə çağırdı. Qətnamədə Azərbaycanın işğal edilmiş ərazilərindən bütün erməni silahlı qüvvələrinin təcili, tam, danışıqsız çıxarılması zəruriliyi, məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtması qeyd edilir (7).

«Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə» adlı qətnamənin qəbul edilməsinə səs verməkdə iştirak edən 146 dövlətdən 7 dövlət əleyhinə səs verdi. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa, Rusiya qətnamənin əleyhinə səs verən dövlətlər arasında idi. ABŞ nümayəndəsi Aleksandro Vulf həmsədr dövlətlərin belə mövqeyini Minsk qrupunun 2007-ci ildə təklif etdiyi «balanslaşdırılmış paket»də göstərilən nizamasalmanın bütün gedişatını özündə əks etdirməməsi ilə əlaqələndirdi (7).

Yenə həmin ilin sentyabrında Baş Məclisin 63-cü sessiyasında Azərbaycan, Gürcüstan, Moldova nümayəndələri çıxış edərək GUAM məkanında «dondurulmuş münaqişələrin» regional, beynəlxalq təhlükəsizliyi hədələdiyi və bu münaqişələrin BMT çərçivəsində nizama salınmasının vacibliyini vurğuladılar (9, 11, 8). Ermənistan nümayəndəsi isə «dondurulmuş münaqişələrin» müzakirəyə qoyulması əleyhinə çıxaraq, Cənubi Qafqazda silahlı münaqişələrin qarşısının alınması üçün «xalqların öz müqəddəratını təyin etmək» hüququnun həyata keçirilməsi zərurətini bildirdi (13).

Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü, işğal etdiyi əraziləri anneksiya etməsi Baş Məclisin xüsusi sessiyasında ətraflı müzakirə edilməlidir. Yeni qəbul edilən qətnamələrdə ərazilərin hərbi yolla tutulması «yolverilməz» hesab edilməli, Təhlükəsizlik Şurasının üzvləri, BMT-nin üzvləri Ermənistandan təcavüz faktlarını kəsməyi tələb etməli, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən qəsb edilməsinin qeyri-qanuni olduğu qeyd edilməlidir.

TŞ Ermənistanı BMT-nin Nizamnaməsinə, Cenevrə konvensiyalarına və digər beynəlxalq hüquq normalarına riayət etməyə və qətnamələrin həyata keçirilməsinə məcbur etməlidir. Ermənistanın Azərbaycan torpaqlarını anneksiya etməsinə heç bir hüquqi, siyasi, tarixi əsas yoxdur, qədimdən Dağlıq Qarabağ ərazilərinin Ermənistana mənsub olması barədə fikirlər əsassızdır.

BMT-nin qəbul etdiyi qətnamələrdə Ermənistanın insan hüquqları və azadlıqlarını pozması qeyd edilməli, bu barədə xüsusi qətnamə qəbul edilməlidir. Ermənistan tərəfindən əsir götürülən yaralı əsgərlərə tibbi yardım göstərilmir, ac-susuz saxlanılır, müxtəlif işgəncələrə məruz qalırlar. Xəstəxanalar dağıdılmış, münaqişə zonasında həkim və tibb işçiləri öldürülmüş, qocalar, qadınlar, uşaqlar təcavüzün acı nəticələrinin qurbanı olmuşlar. BMT qəbul etdiyi qətnamələrdə hərbi əsirlərin, müharibə zamanı mülki əhalinin müdafiə edilməsi ilə bağlı 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarının prinsiplərinə hörmət etməyə çağırmalı, bu qətnamələrə Ermənistanın əməl etməsinə nəzarət etməli, təhqiqat aparmalı, tədbirlər görməlidir, insan hüquqları və azadlıqlarını tanımaq üçün Ermənistana müraciətlər edilməlidir.

1993-cü ildən Ermənistan işğal etdiyi ərazilərdə möhkəmlənmək üçün tədbirlər görür. İşğal edilən ərazilərdən əhalinin zorla köçürülməsi, yaxud deportasiyası, bu ərazilərə işğalçı dövlətin əhalisinin köçürülməsi Cenevrə konvensiyalarına ziddir. Lakin Ermənistan nəinki DQMV ərazisinə, eyni zamanda ətraf rayonlara, məsələn, Kəlbəcərə ermənilərin köçürülməsini planlaşdırdı. 2004-cü ildə ATƏT-in faktları araşdırma üzrə missiyası Azərbaycanın işğal olunmuş ərazilərində erməni əhalinin qeyri-qanuni məskunlaşdırılmasını aşkar etdi (2, 92).

İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında konvensiyanın 3-cü maddəsində deyilir: «Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır» (3, 2). 4-cü maddənin 1-ci bəndində: «Heç kəs köləlikdə və asılılıqda saxlanmamalıdır», 2-ci bəndində «Heç kəs məcburi və ya icbari əməyə cəlb olunmamalıdır» ifadələri əksini tapmışdır (3, 3).

İstər Ermənistanın Azərbaycana təcavüzü, istərsə də həmin dövlətin terror siyasəti nəticəsində 1 milyondan çox insan öz mülkiyyətindən məhrum olaraq qaçqın və məcburi köçkün vəziyyətindədir. İşğal edilən ərazilərdə evlərin əksəriyyəti dağıdılmış, qarət edilmişdir: «Yandırılmış torpaq» taktikası nəticəsində uzun müddət bu torpaqların istifadəsi qeyri-mümkündür. Ermənistanın təkidlə mane olmasına baxmayaraq, Baş Məclisin 60-cı sessiyasında «yandırılmış torpaq»da vəziyyəti öyrənmək üçün BMT nümayəndələrinin iştirakı ilə həmin ərazilərə ATƏT-in missiyasının göndərilməsi haqqında qətnamə qəbul olundu (2, 93).

Konvensiyanın 1 saylı protokolunun 1-ci maddəsində mülkiyyətin müdafiəsi barədə deyilir: «Hər bir fiziki və ya hüquqi şəxs öz mülkiyyətindən dinc istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz…» (3, 18).

BMT-nin İnsan hüquqları üzrə Şurası Ermənistanın təcavüzü zamanı öz yurdlarından qovulan azərbaycanlıların hüquqlarını təsdiq etməli, onların Vətənə qayıtmasına şərait yaratmalıdır. 1968-ci il 27 fevral tarixdə BMT-nin İnsan hüquqları barədə komissiyasının ərəblərin hüquqları haqda belə bir qərar qəbul etməsini, komissiyanın səlahiyyətlərinin çərçivədən kənar çıxmadığını bəhanə edən İsrail qəbul etməmişdi (6, 34). İndi isə Şura yaradılmış və belə bir qətnamənin yerinə yetirilməsinə bəhanə olmaz. Azərbaycan da həmin Şuranın üzvüdür və belə bir qətnamənin qəbul etdirilməsinə cəhd etməlidir. BMT yaradıldığı vaxtdan qaçqınların vəziyyəti ilə maraqlanmışdır (9, 16). Lakin Təşkilat yalnız qaçqın və məcburi köçkünlərə humanitar yardımla kifayətlənməməli, onların yaşayış yerlərini kütləvi surətdə tərksilah etmələrinin səbəblərini tədqiq etməli, fövqəladə yardım göstərməklə, səbəbləri aradan qaldırmaqla onların repatriasiyasının bütün aspektlərini nəzərə almalıdır. İnsan hüquqlarının pozulması ilə qaçqın və məcburi köçkün axınının yaranması arasında sıx bağlılıq var. Buna görə də qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə İnsan hüquqları üzrə Şura maraqlanmalı, qəbul etdiyi qətnamələrdə onların qeyd-şərtsiz öz Vətənlərinə qayıtması tələb edilməlidir.

BMT-nin qəbul etdiyi qətnamələrdə qaçqın və məcburi köçkün kütləsinin yaranmasından narahatlıq yarandığı, yalnız 874 saylı qətnamədə qaçqın və məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz şəraitdə qayıtması nəzərdə tutulsa da, onlara dəyən zərərin ödənilməsi, onların qayıtmasını təchiz etmək nəzərdə tutulmur. Başqasının ərazisinin işğal edilməsi, əhalinin qovulması problemi beynəlxalq məna kəsb edir və o, beynəlxalq hüquq norması əsasında həllini tapmalıdır.

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanda olan 1 milyondan çox qaçqın və məcburi köçkünün əksəriyyəti uşaqlardır. Baş Məclisin 1994-cü il 49-cu sessiyasında iştirak edən prezident H.Əliyev YUNİCEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsini imzalayarkən, Ermənistanın beynəlxalq hüquq normalarına zidd olaraq 50-dən artıq azərbaycanlı uşağı əsirlikdə saxladığını bildirmişdir (1, 229). İnsan hüquqları üzrə Şura YUNİCEF-lə əməkdaşlıqda uşaqların vəziyyəti ilə maraqlanmalı, öz qətnamələrində Ermənistanın siyasətini pisləməli, uşaqların hüquqlarının bərpa olunmasını tələb etməlidir.

TŞ 1994-cü il 19 oktyabr tarixli 1269 saylı qətnaməsində sülh və təhlükəsizliyin dəstəklənməsində əsas məsuliyyətin onun üzərinə düşdüyünü bir daha təsdiq etdi, beynəlxalq terror aktları pislənildi, bu məqsədlə bütün dövlətlər, BMT və digər beynəlxalq, regional təşkilatlar beynəlxalq terrorizmlə mübarizə etməyə, onu maliyyələşdirmənin qarşısını almağa çağırıldı (12). TŞ-nın bu qətnaməsinə istinad edərək BMT-nin qətnamələrində beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi pislənilməli, demokratik ölkələrə tədbirlər görmək üçün müraciətlər edilməlidir. Beynəlxalq hüquq normaları və adətlərinə tabe olmadığı halda təcavüzkar Ermənistan dövləti Nizamnamənin 6-cı maddəsinə müvafiq Təşkilatdan kənarlaşdırılmalıdır: «Bu Nizamnamədə təsbit olunmuş prinsipləri sistematik qaydada pozan Birləşmiş Millətlər Təşkilatının üzvü Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Məclis tərəfindən Təşkilatdan çıxarıla bilər».

Cinayətlərdə məsuliyyət daşıyan şəxslər isə Beynəlxalq Hərbi Tribunala verilməli, cəzalandırılmalıdır, əks halda beynəlxalq hüquq normaları öz nüfuzunu, əhəmiyyətini itirir. Beynəlxalq hüququn ümumi prinsiplərinin hüquqi əsasında nə dayanır? Beynəlxalq hüquqşünas F.İ.Kojevnikovun fikrincə, «Beynəlxalq hüquq normaları beynəlxalq əlaqələr, sülhün və təhlükəsizliyin təmin olunması olub,

bəşəriyyətin, bütün sülhsevər xalqların tələblərini özündə əks etdirir» (5, 110). TŞ-nın 2001-ci il 30 avqust tarixli 1366 saylı «Silahlı münaşqişələrin qarşısının alınmasında TŞ-nın rolu» adlı qətnaməsində də keçmiş Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların rolu etiraf edimiş, belə tribunalların gələcəkdə silahlı münaqişələrin qarşısını almaqda rolu göstərilmişdir (12). Bu nöqteyi-nəzərdən gələcəkdə Ermənistanın növbəti cinayətlərinin qarşısını almaq üçün xüsusi tribunalın yaradılması vacibdir. Oxşar faciələrə yol verilməməsi üçün Xocalı soyqırımında və digər faciələrdə günahkar olanlar məsuliyyətə cəlb edilməlidir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü, yalnız bizim ölkə üçün deyil, digər ölkələr üçün də dəyərli olan mədəni abidələrin qarət edilməsinə, məhv edilməsinə səbəb oldu. H.Əliyev Fondunun topladığı materiallar, faktlar bunları təfsilatı ilə sübut edir. İngilis, fransız dillərində yayımlanan bu materiallar dünya birliyində Ermənistanın Azərbaycanın mədəniyyətinə, elminə, təhsilinə və s. vurduğu zərər barədə tam rəy formalaşdırır (15, 16, 17, 18, 19, 20). Bununla yanaşı BMT-nin Elm, təhsil, mədəniyyət məsələləri üzrə (UNESCO) ixtisaslaşmış qurumu bu məsələlərlə bağlı təhqiqat aparmalıdır.

Ermənistan Silahlı münaqişə zamanı mədəni dəyərlərin müdafiəsi barədə 1954-cü il Haaqa konvensiyasını pozur. Həmin konvensiyada mənşəyindən, mənsubiyyətindən asılı olmayaraq, bəşəriyyətin mədəni dəyərlərinin qorunması göstərilmişdir. Konvensiya silahlı münaqişələrin istənilən formasında tətbiq edilməlidir. Konvensiyanın 18-ci maddəsinin 2-ci bəndində deyilir ki, əgər ölkənin ərazisi işğal edilibsə və hətta heç bir hərbi qarşıdurma yoxdursa, konvensiya həyata keçirilməlidir.

Konvensiya oğurluq, qarət, qeyri-qanuni mənimsəmə, həmçinin istənilən vandalizm aktlarını, daşınan mədəni dəyərlərin müsadirəsini qadağan edir. İşğalçı dövlət ərazisi işğal edilən səlahiyyətli milli hakimiyyətin mədəni dəyərləri qoruyub saxlamaq cəhdlərini dəstəkləməlidir. Əgər milli dövlət bunu etmək iqtidarında deyilsə, işğalçı dövlət onunla əməkdaşlıqda bu dəyərləri qorumaq barədə tədbirlər görməlidir. Azərbaycan UNESCO-dan mədəni, tarixi abidələrin qorunmasını xahiş etməlidir. Konvensiyaya necə əməl edildiyini təhqiq etmək üçün UNESCO münaqişə zonasına öz ekspertini göndərməlidir.

Konvensiyanın 5 və 28-ci maddələrində işğalçı dövlətin hakim dairələrinin məsuliyyət daşıması müəyyən edilmişdir.

İqtisadiyyata dəyən zərərə gəldikdə isə, ilkin məlumatlara görə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində iqtisadiyyata 60 milyard dollardan çox zərər dəymişdir (19, s.5). Qeyd etdiyimiz kimi, münaqişəyə qədər DQMV Azərbaycanın iqtisadi regionları arasında öz sənaye və kənd təsərrüfatının inkişafına görə Abşeron, Gəncə-Qazax, Naxçıvan Muxtar Respublikası regionlarından sonra 4-cü yerdə dururdu. Zəbt olunan ərazilərdə müəssisələrin qarət edilməsi, dağıdılması, məcburi köçkün kütləsinin yaranması ölkənin iqtisadiyyatına zərbə vurdu, uzun müddət işsizlik problemi yaratdı.

BMT qəbul etdiyi qətnamələrdə Ermənistanın Azərbaycana təcavüzü, ərazilərinin işğalı nəticəsində ona dəyən zərərin əvəzinin ödənilməsi barədə qeyd etməlidir.

Ermənistan beynəlxalq adət hüququnda tanınmış və BMT Beynəlxalq hüquq komissiyasının layihəsində öz əksini tapmış aşağıdakı məsuliyyət formalarına cəlb edilməlidir.

1) Restitusiya – yəni hüquq pozuntusu törədilməmişdən əvvəl mövcud vəziyyət bərpa edilməlidir. Ərazi bütövlüyü bərpa edilməli, qeyri-qanuni ələ keçirilən əmlak geri qaytarılmalı, hərbi əsir və girovlar azad edilməlidir və s. 2)Kompensasiya – Ermənistanın Azərbaycana vurduğu maddi zərər pul formasında ödənilməlidir. 3) Satisfaksiya – Azərbaycanın ərazi bütövlüyünü pozduğu və xalqın psixoloji gərginliyinə səbəb olduğu üçün Ermənistan Azərbaycandan rəsmi üzr istəməli, törətdiyi əməlin hüquqa zidd olduğunu etiraf etməli, təqsirli şəxslər məsuliyyətə cəlb olunmalıdır. 4) Təkrar etməmə təminatı – Ermənistan gələcəkdə bu cür hüquq pozuntusuna yol verməyəcəyi barədə xüsusi öhdəlik götürməlidir.

Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün danışıqlar hansı yolla olmalıdır? Ərazi bütövlüyünün bərpası sülhün birinci şərtidir. Ermənistan TŞ-nın qətnamələrində qeyd edilən dövlətlərin suverenliyi, ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilər əldə etmək üçün güc tətbiq etməyin yolverilməzliyi prinsiplərini təsdiq edərək silahlı qüvvələrini işğal etdiyi Azərbaycan ərazilərindən çıxartdıqdan sonra sülh danışıqları keçirilməlidir. İşğalçı qüvvələrin çıxarılması BMT nümayəndələrinin müşayiəti altında olmalı, Ermənistan BMT-yə müharibənin kəsilməsi barədə sənədlər, hər bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə, siyasi müstəqilliyinə hörmət, beynəlxalq tanınmış sərhədlərin təhlükəsizliyi barədə sənədləri təqdim etməlidir. İkincisi, işğal edilən ərazilər minalardan təmizlənməli, ermənilərin həyata keçirdiyi «yandırılımış torpaq» taktikasının nəticəsində məhv olmuş ərazilər bərpa edilməlidir. Üçüncüsü, qaçqın və məcburi köçkün probleminin nizama salınması diqqət mərkəzinə gətirilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının prezidenti H.Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar), I cild, «Göytürk». B.: 1995, 290 s.
2. Heydər Əliyev: «Biz Azərbaycanın ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməri k», «Əbilov, Zeynalov və oğulları», B.: 2006, 472 s.
3. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında konvensiya. B.: Qanun, 2006, 32 s.
4. İnsan hüquqları və qaçqınlar, «İnam» plüralizm mərkəzi. B.: 1999, 32 s.
5. Блищенко И.П., Солнцева М.М., Мировая политика и международного право, «Международные отношения», М., 1991, 160 с.
6. Блищенко И.П., Кудрявцев В.Д., Агрессия Израиля и международное право, «Международные отношения», М., 1970, 80 с.
7. Генеральная Ассамблея ООН приняла резолюцию о положении на оккупированных территориях Азербайджана, Центр Новостей ООН, http: // www.un.org/ russian
8. Глава МИД Молдовы призвал укрепить роль ООН в разрешении замороженных конфликтов, Центр Новостей ООН, http: // www.un.org/ russian
9. Замороженные конфликты на пространстве ГУАМ остаются основным источником нестабильности в регионе заявиль Эльмар Мамедьяров, Центр Новостей ООН, http: // www.un.org/ russian
10. Михаил Саакашвили призвал учредить в рамках ООН эффективных процесс по урегулирования конфликтов, который приведет к воссоединению Грузии, Центр Новостей ООН, http: // www.un.org/ russian
11. Казимиров В., Карабах и резолюции Совета Безопасности ООН, Постоянный адрес новости: www.regnum. ru/news/358916.html

12. Перечень резолюций Совета Безопасности принятых в 1999 году, www.un.org/ russian
13. Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/ russian
14. События на Южном Кавказе свидетельствуют, что пришло время серьезно подойти к праву народов на самоопределение заявиль президент Армении, Центр Новостей ООН, http: // www.un.org/ russian
15. Activité des organizations terrorists armeniénnes contre l'Azerbaidjan, Série réalités sur le Karabagh, Fondation Heidar Aliyev, Bakou, 2006, 12p.
16. Brève information sur l'histoire du Karabagh, Série réalités sur le Karabagh, Fondation Heidar Aliyev, Bakou, 2006, 12p.
17. Génocide de Khodjali, Série réalités sur le Karabagh, Fondation Heidar Aliyev, Bakou, 2006, 12p.
18. Le commencement du conflit du Karabagh, Série réalités sur le Karabagh, Fondation Heidar Aliyev, Bakou, 2006, 12p.
19. Les consequences de l'agression Armenien contre l'Azerbaidjan, Serie realite sur le Karabagh, Fondation Heidar Aliyev, Bakou, 2006, 12p.
20. The series of "The true facts about Garabagh war against Azerbaijan, Targeting cultural heritage", Heydar Aliev Foundation, Baku, 2007, 280 p.

**Р.Б.ДАДАШЕВА**

## РЕЗЮМЕ

В статье «Путь решения в рамках ООН конфликта между Арменией и Азербайджаном» исследовано резолюции Совета Безопасности и Генеральной Ассамблея ООН. Анализируется недостаточности. Втор показывает, что несмотря на неосуществления резолюции СБ ООН должна принять новые резолюции актуальных условиях. На в этих резолюциях должен быть показано агрессия Армении, должен применяться санкции против ее СБ ООН должен заставлять Армении соблюдать резолюции ООН, Женевские конвенции и других международных правовых норм. В заключение автор анализирует потенсиалов органов ООН на решение проблемы и выдает некоторые рекомендации касающихся данной проблемы.

**R.B.DADASHOVA**

## SUMMARY

In the article "The solutions ways keep within the limits of UN of the conflict between Armenie and Azerbaijan" has been researched the resolution of Security Council and General Assembly of UN. Has been analysed the insufficiencies in the article showed, in spite of non-realization the resolutions. The UN must adopt news resolutions in present day conditions in all this resolutions must been showed the aggression of Armenie, must put into practice the sanctions against her Security Council of UN must keep Armenie to observe the resolutions of UN, Geneve conventions and other international legal rules. At the conclusion of the article the author analyses the potential of the organs of UN in the decision of the problem and the general issue related to the researched problem have been set up.